# Elmi nailiyyətlər sərgisinə baxış



**Noyabrın 4-də AMEA-nın Rəyasət Heyətində Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş elmi nailiyyətlər sərgisi təşkil olunub.**

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri və Akademiyanın 80 illik yubiley tədbiri çərçivəsində ölkəmizdə səfərdə olan dünyanın bir sıra Elmlər Akademiyalarının və nüfuzlu beynəlxalq elmi qurumlarının rəhbər heyəti və nümayəndələri sərgiyə baxış keçirib, məlumat alıblar.